# Ankarada COP29-a hazırlıq prosesi müzakirə olunub



**Türkiyənin Sənaye və Texnologiya Nazirliyinin Avropa İttifaqı işləri və Xarici Əlaqələr İdarəsinin direktoru Halit Hatip Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq məsələlərini müzakirə etmək üçün ölkənin İqlim Dəyişmələri İdarəsinə gəlib.**

AZƏRTAC xəbər verir ki, Ankaradakı müzakirələrdə Türkiyənin İqlim Dəyişmələri İdarəsinin rəhbəri professor Halil Hasar, Ekologiya və beynəlxalq siyasət məsələlərinin müzakirəsi departamentinin rəhbəri Ayşin Turpancı, ekspert icmasının nümayəndələri iştirak ediblər.

Azərbaycanda COP29 çərçivəsində təşkil edilməsi planlaşdırılan yüksəksəviyyəli proqram üzrə fikir mübadiləsi aparılıb.

Digər məsələlərlə yanaşı, COP29-dakı Türkiyə pavilyonunda təşkil ediləcək tədbirlər, eləcə də iqlim dəyişmələrinin nəticələrinə qarşı prosesin rəqəmsallaşdırılması üzrə səylər nəzərdən keçirilib.

Azərbaycan.- 2024.- 9 avqust (№ 168).- S.6.